# YASİF NƏSİRLİ - 85

# AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNİN TƏBRİKİ

Əziz qələm dostumuz Yasif!

Sizi - tanınmış nasir, publisist, tənqidçi, tərcüməçi, alim və ictimai-siyasi xadimi anadan olmağınızın səksən beş illiyi münasibətilə səmimi qəlbdən təbrik edirik.

Siz 23 dekabr 1938-ci ildə Cəbrayıl rayonunun Kavdar kəndində dünyaya göz açmısınız. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetində, Moskvada Qorki adına Ədəbiyyat institutunda, Moskva Ali Komsomol Məktəbində və SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin Ali məktəbində təhsil almısınız. Adlarını çəkdiyimiz təhsil ocaqlarının hamısını fərqlənmə diplomu ilə başa vurmusunuz.

Bədii yaradıcılığa orta məktəbdə oxuduğunuz illərdən başlamısınız. İmzanız oxuculara ötən əsrin altmışıncı illərindən tanışdır. Universitetin dördüncü kursunda oxuyarkən sizin «Araz daşan yerdə» və «Qırmızı qərənfil» sənədli hekayələr toplunuz nəşr olunmuşdur.

C.Məmmədquluzadə yaradıcılığına həsr edilmiş elmi məqalələriniz universitetin «Elmi əsərlər» jurnalında və dövri mətbuatda çağdaş nəsrimiz barədə təhlili yazılarınız ardıcıl dərc edilmişdir.

«Cəlil Məmmədquluzadənin ilk əsərlərində sənətkarlıq» və «Azərbaycan şeirinin inkişafı» mövzularında yazdığınız namizədlik və doktorluq dissertasiyalarınız, çap etdirdiyiniz monoqrafiyalar ədəbi ictımaiyyət tərəfindən maraqla qarşılanmışdır. «İnsanlar, görüşlər», «Adsız təpə», «Çinar vüqarı», «Qayıdacağam» (rus dilində), «Görə bilmədin», «Sevil Qazıyeva», «Bolluq yaradanlar», «Azərbaycan şeri» və başqa povest, hekayə, pyes və elmi kitablarınız işıq üzü görmüşdür.

Sonralar «Ömür», «Dünya», «Zaman» adlı üç cildliyiniz, «Günəşlə görüş», «Mənalı ömür» və «Zirvə» əsərləriniz çap edilmişdir. «Liftdə hadisə», «Təyyarə geri dönür», «Qan qardaşları» pyesləriniz dəfələrlə Azərbaycan Dövlət televiziyası vasitəsilə göstərilmişdir.

Azərbaycan Milli Dram Teatrında səhnəyə qoyulmuş və hazırda da müvəffəqiyyətlə oynanılan Mir Cəlal Paşayevin «Dirilən adam» romanını (şərikli) səhnələşdirmisiniz.

Siz tərcüməçi kimi də oxuculara yaxşı tanışsınız. G.Markovun «Sibir» romanını (2 kitab), A.Dıqanskinin «Filosof və paltaryuyan qız» povestini, «Polşa hekayələri» kitabını, Mariya Mayerovanın «Dünyaların ən yaxşısı» romanını, Ş.Ələddinin «Mərmər pillələr» povestini



tərcümə etmiş və hər birini ayrıca kitab kimi nəşr etdirmisiniz. Xarici ölkə yazıçılarının çoxlu sayda əsərlərini dilimizə çevirmiş, onların dövri mətbuatda işıq üzü görməsinə nail olmusunuz.

Həyat və yaradıcılığınız barədə çoxlu sayda məqalələr yazılmış, AzTV-də haqqınızda dəfələrlə film göstərilmiş, «Yasif Nəsirli», «Şərəfli ömür» kitabları işıq üzü görmüşdür.

Siz hələ tələbə olarkən Azərbaycan Dövlət Universitetinin Tələbə Elmi Cəmiyyətinin sədri və Universitet qəzetinin redaktor müavini kimi çalışmısınız. Sonra uzun müddət Azərbaycan Gənclər təşkilatının Mərkəzi Komitəsində məsul vəzifələrdə işləmisiniz.

«Ulduz» ədəbi-bədii və ictimai-siyasi jurnalının ilk baş redaktoru olmusunuz. Redaktor olduğunuz müddətdə jurnal respublikada dərc edilən bütün jurnalların nəşrini keçərək böyük tirajla çıxmış və həcmini öz şəxsi təşəbbüsünüzlə 64 səhifədən 96 səhifəyə qaldıra bilmişdiniz. Xeyli vaxt «Novruz» qəzeti Sizin redaktorluğunuzla çap edilib. Bir çox jurnal və qəzetlərin redaksiya heyətlərinin üzvüsünüz.

Hörmətli Yasif müəllim!

Siz mənalı ömrünüzü Vətənə, dövlətə və xalqa ləyaqətlə xidmətə həsr etmisiniz. Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, incəsənətinin inkişafı naminə göstərdiyiniz əməli fəaliyyətiniz də təqdirəlayiqdir.

Siz o xoşbəxt insanlardansınız ki, Ulu Öndərlə şəxsən 12 il birlikdə işləmisiniz. 1969-1973-cü illərdə Ulu Öndərin köməkçisi, 1975-1982-ci illərdə Ulu Öndərin Mühafizəsinin (Dövlət Təhlükəsizlik Komitəsinin xətti ilə) rəhbəri olmusunuz. Siz Ulu Öndər haqqında çoxlu məqalələrin müəllifisiniz.

Siz respublikada kifayət qədər tanınmış ictimai-siyasi xadimsiniz və xalqımız qarşısında böyük xidmətləriniz vardır. Ömrünüzün 25 ilini Azərbaycan Dövlət Təhlükəsizlik Nazirliyində İdarə rəisi və kollegiya üzvü olmuşsunuz. İşlədiyiniz müddətdə yaradıcı ziyalılarımıza lazımi qayğınızı əsirgəməmisiniz. Uzun zaman Azərbaycan KP Mərkəzi Komitəsinin müxtəlif şöbələrinə rəhbərlik etmisiniz. Azərbaycan KP MK-nın üzvü seçilmisiniz. Zaqafqaziya Hərbi Dairəsi Hərbi Şurasının (Tbilisi şəhəri) üzvü kimi həmin Şuranın qərarı ilə 1990-cı ilin may ayında general-mayor rütbəsinə layiq görülmüsünüz. Respublika Ali Sovetinin, sonradan Milli Məclisin deputatı seçilmisiniz. İnzibati orqanlarla iş komissiyasının sədri olmusunuz. SSRİ-nin fəxri çekistisiniz. Birinci Qarabağ müharibə veteranısınız. Respublika Qarabağ Təşkilat Komitəsi sədrinin birinci müavini kimi erməni yaraqlılarının Vətənimizdən qovulmasında, xüsusən Goranboy rayonunun Çaykəndi və onunla qonşu olan ətraf kəndlərinin ermənilərdən azad edilməsində, sərhədlərimizin möhkəmlənməsində unudulmaz xidmətlər göstərmiş və ağır yaralanmısınız (1988-1991). Qarabağın azad edilməsi uğrunda apardığınız mübarizə və səyləriniz təqdirə layiqdir.

Siz 2007-ci ildən Azərbaycan Dünyası Beynəlxalq Əlaqələr Mərkəzinin (Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqə Cəmiyyəti) prezidentisiniz.

Siz bir ictimai-siyasi xadim, yazıçı-alim kimi dəfələrlə keçmiş Dağlıq Qarabağ problemi ilə bağlı beynəlxalq tədbirlərdə, xarici televiziya və radiolarda çıxışlar etmisiniz.

Bağdad şəhərində keçirilən VII və VIII Ümumdünya İslam Konfranslarının iştirakçısı olmusunuz. İngiltərə, İtaliya, Fransa, Yaponiya, Türkiyə, Malta, Kuba, Çin Xalq Respublikası və başqa dövlətlərdə respublika nümayəndə heyətinə başçılıq etmisiniz.

Həmçinin Respublika «Veteran» Xeyriyyə fondunun prezidenti, Azərbaycan Ziyalılar Akademiyasının həqiqi üzvü, Dünya Azərbaycanlılarının Mədəniyyət Mərkəzinin vitse-prezidenti və prezidenti, Ukraynadakı Azərbaycan diasporunun fəxri sədri, bir çox xarici ölkə universitetlərinin fəxri doktorusunuz. Siz belə geniş və gərəkli fəaliyyətinizlə beynəlxalq aləmdə Azərbaycanın tanınması, ədəbiyyat və incəsənətimizin təbliği üçün indi də var qüvvənizi sərf edirsiniz.

Qarabağ və Qərbi Azərbaycanda ermənilərin xalqımıza qarşı törətdiyi faciələrin, yeritdikləri işğalçılıq siyasətinin dünya xalqlarına çatdırılmasında böyük rolunuz vardır. Azərbaycan yazıçılarının axırıncı iki qurultayında hərbi-vətənpərvərlik komissiyası sədrinin müavini seçilmisiniz. Xidmətlərinizə görə bir çox dövlət mükafatları almış və bir neçə ədəbi mükafatlar laureatısınız. O cümlədən 1992-ci ildə elmi xidmətlərinizə görə akademik Yusif Məmmədəliyev beynəlxalq mükafatına layiq görülmüsünüz. «Əbədi prezident» qızıldan döş nişanı ilə təltif edilmisiniz. "Qızıl qələm" media mükafatı, insanlara göstərdiyiniz xeyriyyəçiliyə görə "Həzrəti Əli (ə.s.)" fəxri mükafatı, "Əsl İnsan" məktəbinin təşkilatçısı və "İdeal Dünya" uğrunda göstərdiyiniz fəaliyyətə görə "Qalib Sultan" diplomu ilə təltif edilmisiniz.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Azərbaycan ədəbiyyatının inkişafındakı xidmətlərinizə görə «Əməkdar İncəsənət xadimi» fəxri adına layiq görülmüsünüz.

Hörmətli qələm dostumuz!

Sizi bir daha 85 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edir, Sizə uzun ömür, möhkəm can sağlığı və yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**